# “Həyat bilgisi fənninin tərdrisi metodikası”

**mövzusunda ixtisasartırma proqramının**

# Oxu materialı

# Mündəricat

**Həyat bilgisi fənninin məqsəd və vəzifələri......................................................................3**
**Həyat bilgisi fənninin kurikulumunun məzmunu........................................................6**
**Təlim strategiyaları.................................................................................................15**
**Müasir təlimin komponentləri..................................................................................16**
**Fəal təlimin iş formaları və üsulları.........................................................................18**
**Tədris prosesinin planlaşdırılması...........................................................................20**
**Fəal dərsin növləri...................................................................................................21**
**Oyunların təlimdə rolu.............................................................................................22**
**Ekskursiya................................................................................................................23**
**Həyat bilgisi dərslərində qiymətləndirmənin aparılması..........................................24**
**İnsan hüquqları və demokratik vətəndaşlıq.............................................................36**
**Uşaq hüquqları haqqında Konvensiya......................................................................36**
**Demokratiya mədəniyyəti kompetensiyaları.............................................................36**
**Dayanıqlı inkişaf məqsədləri.....................................................................................40**

**“Həyat bilgisi fənninin tədrisi metodikası” mövzusunda**

**ixtisasartırma proqramının**

**OXU MATERİALI**

## Həyat bilgisi fənninin məqsəd və vəzifələri

**Fənnin inteqrativliyi**. Dünya ölkələrinin təhsil təcrübəsi göstərir ki, adi ünsiyyət yaratmaqdan tutmuş, kiçik iqtisadi layihələr qurub reallaşdırmağa qədər ən müxtəlif qabiliyyətləri özündə əks etdirən həyati bacarıqlar mükəmməl bir sistemin tərkib hissələri olmalıdır. Belə bacarıqları isə şagirdi sinifdə subyekt kimi qəbul edən şagirdyönümlü təlim və inteqrativ fənlərin köməyi ilə yaratmaq mümkündür. Ona görə də yerli və beynəlxalq təcrübələr nəzərə alınmaqla, “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)” sənədinə bu vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayacaq yeni fənn – Həyat bilgisi fənni daxil edilmişdir.

Həyat bilgisi konkret bir elmin əsaslarını öyrətmir. Bu fənn ümumtəhsil məktəblərində tədris olunan təbiət və sosial fənn sahələrinə aid müəyyən elementləri əhatə edir. Ümumtəhsil məktəblərində tədris olunan həyat bilgisi fənni şagirdin özünü bioloji, psixoloji, sosial və mənəvi tərəfləri ilə bütöv bir varlıq kimi dərk etməsi və reallaşdırması üçün lazım olan bilik, bacarıq və dəyərlər sistemi formalaşdırmağa və onu təkmilləşdirməyə kömək edən inteqrativ fəndir.

*“İnteqrasiya”* latın dilində "integer" – "bütöv, bütövləşmə" deməkdir. "İnteger" sözündən yaranan "inteqratio" sözü də latın dilində "bərpa, tamamlanma" mənasını verir. Sözün etimologiyası inteqrasiyanın proses kimi məzmun və missiyasını aydın ifadə edir. Müxtəlif sistemlərin və ya sistemin hissə və elementlərinin bir-birinə qovuşması, uyğunlaşması inteqrasiya deməkdir. Qədim insanlar dünyanı fəlsəfə adlanan elm vasitəsilə öyrənirdilər. Həmin alimlərə “filosof, mütəfəkkir” deyilirdi. İnsanın dünya barədə bilikləri çoxaldıqca, bütün bilikləri bir rakursdan öyrənmək də çətinləşməyə başladı. Elə həmin an insan zəkası “elmlər yaratmağa” başladı. Tam olan dünyanın hadisələrini fizika, kimya, biologiya, riyaziyyat, tarix, dilçilik və s. müstəvisinə ayırdılar. Həmin dövr üçün bu, insan zəkasının böyük qalibiyyəti idi. Lakin XX əsrdən başlayaraq insanlar bütöv olan dünya barədə tam təsəvvürün formalaşmasının vacibliyini qət etdi.

Pedaqogikada “inteqrasiya” anlayışı fəal şəkildə 1980-ci illərdən başlayaraq istifadə edilir. Təhsil sahəsində inteqrasiyanın əsasında obyektiv səbəblər dayanır və bütün fənn kurikulumlarında inteqrasiya xüsusi tələb kimi nəzərə alınmışdır. Təcrübə göstərir ki,

tədris prosesində *fəndaxili və fənlərarası inteqrasiyanın* təmin edilməsi bilik və bacarıqların şagirdlər tərəfindən daha asan mənimsənilməsi üçün vacib şərtdir.

*Fəndaxili inteqrasiya* müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi, fənn daxilində səpələnmiş faktların sistemləşdirilməsidir. Fəndaxili inteqrasiya bir fənn üzrə müxtəlif məzmun xətlərinin və tədrisin müxtəlif mərhələlərində (siniflərində) qazanılmış bilik və bacarıqların əlaqələndirilməsini nəzərdə tutur.

*Fənlərarası inteqrasiya* bir neçə fənnin əhatə etdiyi ortaq bilik və bacarıqların sintezi olmaqla, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına xidmət edir. Bundan əlavə, fənlərarası və fəndaxili inteqrasiya interaktiv öyrənməyə geniş yol açır, şagirdlərin təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqəli biliklərə yiyələnməsini stimullaşdırır.

İnteqrasiya nəticəsində tədris materialının yığcamlılığı təmin edilir, təkrara yer verilmir, tədris vaxtına qənaət edilir. Şagirdlər az vaxtda çox, həm də bir-biri ilə üzvi şəkildə birləşmiş biliklər əldə edirlər. Bunun təmin edilməsi üçün müəllim bütün əlaqədar fənlər üzrə proqram materiallarına yaxşı bələd olmalı, fənlərarası əlaqədən istifadə etməyin yollarını bilməlidir.

Geniş əhatə dairəsinə malik olan həyat bilgisi fənni şagirdlərin həyati əhəmiyyət kəsb edən bilik, bacarıq və vərdişlər qazanması üçün onları ən zəruri praktik işlərin həyata keçirilməsinə istiqamətləndirir, milli və bəşəri dəyərlərə yiyələnmələrinə, şəxsiyyət kimi formalaşmalarına kömək edir. Fənnin şagirdlərdə ünsiyyət qurma və birlikdə çalışma kimi mənəvi dəyərlərin formalaşdırılmasında, onlarda mühakimə yürütmə, öz nöqteyi-nəzərlərini sərbəst ifadə etmək, onları arqumentləşdirmək, öz hüquqlarını qorumaq və başqalarının hüquqlarını müdafiə etmək vərdişlərinin yaranmasında mühüm rolu vardır.

**Həyat bilgisi fənninin məqsəd və vəzifələri**. Həyat bilgisi fənninin məqsədi müəyyən olunmuş 4 məzmun xəttinin (1. Təbiət və biz; 2. Fərd və cəmiyyət; 3. Mənəviyyat; 4. Sağlamlıq və təhlükəsizlik) köməyi ilə şagirdlərin şüurunda əhatə olunduqları canlı və cansız aləmin vahid, bütöv və bölünməz obrazını yaratmaqdır.

**1. Təbiət və biz** məzmun xətti üzrə fənnin məqsədi şagirdlərdə

- təbiətdə obyekt və hadisələr, canlı və cansız aləmin qarşılıqlı əlaqəsi, təbii mühitin insan fəaliyyəti nəticəsində dəyişməsi haqqında biliklər formalaşdırmaq;
- müşahidələr, ölçmələr və təcrübələr aparmaq, onların nəticələrini təsvir etmək bacarıqları aşılamaq, özünü və təbiəti öyrənməyə həvəs yaratmaq;

• təbiətə sevgi və qayğı hissləri, onunla təmas zamanı ekoloji normalara uyğun davranmaq mədəniyyəti formalaşdırmaqdır.

**2. Fərd və cəmiyyət** məzmun xətti üzrə fənnin məqsədi şagirdlərdə

• yaşadığı cəmiyyətə uyğunlaşmaq üçün insanın sosial keyfiyyətləri, cəmiyyət həyatının ictimai, iqtisadi, siyasi sahələri, eləcə də ictimai münasibətlərin hüquqi tənzimlənməsi barədə zəruri bilik və bacarıqlar formalaşdırmaq;

• vətəndaş məsuliyyəti, qanunlara, ictimai normalara və demokratik dəyərlərə hörmətlə yanaşmaq, onlara uyğun davranmaq mədəniyyəti qazandırmaq;

• özünü vətəndaş, ailə üzvü, işçi, sahibkar, istehlakçı kimi sosial rollarda reallaşdıra bilməsinə zəmin yaratmaqdır.

**3. Mənəviyyat məzmun xətti üzrə** fənnin məqsədi şagirdlərdə

• milli və bəşəri dəyərlərə yiyələnməklə mənəvi baxımdan onları inkişaf etdirmək, milli, irqi, dini, cinsi mənsubiyyətindən asılı olmayaraq ünsiyyət bacarıqları formalaşdırmaq;

• qazandığı bilik, bacarıq və mənəvi dəyərlərə əsaslanaraq həyatda qarşılaşdığı problemləri həll edə bilmək keyfiyyəti formalaşdırmaq, milli və bəşəri dəyərlərə yiyələnməklə mənəvi baxımdan özünü inkişaf etdirməkdir.

**4. Sağlamlıq və təhlükəsizlik məzmun xətti üzrə** fənnin məqsədi şagirdlərdə

• sağlam həyat tərzi, təhlükəsizlik və ilk tibbi yardım qaydalarına riayət etmək bacarıqları**;**

• məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış bacarıqları;

• fövqəladə və təhlükəli hadisələrlə rastlaşan zaman düzgün davranış bacarıqları formalaşdırmaqdır.

Bu məzmun xətlərinin hər biri müəyyən alt xətlərdən ibarətdir. Alt xətlər məzmun xətlərinin əhatə etdiyi məsələlərə aydınlıq gətirir.

**Məzmun xətlərinin alt xətləri**

**1. "Təbiət və biz" məzmun xətti**

**Alt xətlər**

- Cisim, maddə və hadisələrin müxtəlifliyi;
- Yerin təbəqələri və onlarda gedən proseslər;
- Canlılar aləmi;
- Ekologiya.

**2. "Fərd və cəmiyyət" məzmun xətti**

**Alt xətlər**

- Fərd, ailə, cəmiyyət və dövlət;
- Cəmiyyətin sosial-iqtisadi həyatı;
- İnsan hüquqları və vətəndaşlıq.

**3. “Mənəviyyat” məzmun xətti**

**Alt xətlər**

- Ailə, məişət və cəmiyyətdə ədəb və davranış qaydaları;
- Din. Əxlaqın formalaşmasında dinin rolu.

**4. “Sağlamlıq və təhlükəsizlik” məzmun xətti**

**Alt xətlər**

- Sağlam həyat tərzi;
- Həyat fəaliyyətinin təhlükəsizliyi;
- Fövqəladə hallarda mühafizə.

**Fəaliyyət xətləri.** Fənn kurikulumunda fənnin məzmunu bacarıqlar şəklində ifadə olunmuş standartların köməyi ilə verilir. Bacarıqlar isə şagirdin müxtəlif fəaliyyətləri nəticəsində əldə olunur və fəaliyyətdə nümayiş etdirilir. Buna görə standartlar müəyyənləşdirilərkən aşağıdakı fəaliyyət xətləri ilə əlaqəlilik nəzərdə tutulmuşdur.

- Mühakiməyürütmə və əsaslandırma;
- Əlaqələndirmə;
- Tədqiqetmə;
- Problemin həlli;
- Təqdimetmə.

## Həyat bilgisi fənninin kurikulumunun məzmunu

Təhsil standartlarını cəmiyyətin təhsilə sifarişi kimi dəyərləndirmək olar. Təhsil standartları hazırlanmazdan əvvəl aşağıdakı məsələlərlə bağlı araşdırma və təhlillər aparılır:

- cəmiyyətin tələb və ehtiyacları araşdırılır;
- şagirdlərin ehtiyac və maraqları öyrənilir;
- ölkə daxilində və onun hüdudlarından kənarda fənn mütəxəssislərinin təcrübəsi öyrənilir.

Həyat bilgisi fənninin kurikulumu üç hissədən ibarətdir:

1. Fənnin məzmunu (təlim nəticələri və məzmun standartları).
2. Təlim strategiyaları.
3. Qiymətləndirmə.

Məzmun standartı mahiyyət etibarilə nəticə şəklində olub, özündə mənimsəniləcək konkret *bilik* və *fəaliyyəti* əks etdirir. *Bilik komponentində* "Şagird nəyi öyrənir?", *fəaliyyət komponentində* isə "Öyrəndiyini necə nümayiş etdirir?" sualları cavablandırılır.

| **Bilik**<br>Şagird nəyi öyrənir? | **Fəaliyyət**<br>Öyrəndiyini necə nümayiş etdirir? |
|---|---|
| **Biliyin kateqoriyaları** | **Bacarığın xüsusiyyətləri** |
| Deklarativ | İdraki (koqnitiv) |
| Konseptual | Emosional (affektiv) |
| Prosedural | Psixomotor (hərəki) |
| Metakoqnitiv | |

Əsas standartlar təhsil səviyyələri üzrə (ibtidai təhsil və ümumi orta təhsil üzrə) təlim nəticələrini, alt standartlar isə siniflər üzrə təlim nəticələrini ifadə edir. Başqa sözlə desək, əsas standart təlim nəticəsini ümumi şəkildə ifadə edir və bütün siniflər üzrə, demək olar ki, dəyişməz qalır. Alt standartlar isə əsas standartın tərkib hissəsi olub, sinif daxilində və sinifdən-sinfə keçərkən dəyişir (həm bilik, həm də fəaliyyət komponenti). Sinifdən-sinfə keçdikcə əhatə olunan bilik və bacarıqların miqyası alt standartlar vasitəsilə müəyyənləşdirilir. Bu, həm də sinifdən-sinfə biliyin və bacarığın necə inkişaf etdiyini izləməyə imkan verir. Nümunə:

| **V sinif** | **VI sinif** | **VII sinif** |
|---|---|---|
| 3.1.Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir. | 3.1.Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir. | 3.1.Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir. |

| | | |
|---|---|---|
| 3.1.1.Ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir. | 3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşma-sına təsir edən amilləri dəyərləndirir. | 3.1.1. Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir. |
| 3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir. | 3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir. | 3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir. |
| 3.2.1. Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir. | 3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir. | 3.2.1. Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır. |
| 3.2.2. Mənəvi borcun (təbiət, cəmiyyət, dövlət, ailə qarşısında) əhəmiyyətini izah edir. | 3.2.2. Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir. | 3.2.2. Təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir. |
| 3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir. | 3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir. | 3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir. |
| 3.3.1. Dini inamların ümumi və fərqli cəhətlərini müqayisə edir. | 3.3.1. Dini ibadət və mərasimləri müqayisə edir. | 3.3.1. Dini-əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir. |

***Deklarativ bilik*** hər hansı bir anlayışın dərk edilməsidir. Bu bilik növü fənlə bağlı əldə edilən mühüm informasiyadır. Deklarativ bilik yaddaşa əsaslanır. Bunlar fənnə aid mühüm terminlər, ifadələr, təriflərdir ki, şagirdlərin onları bilməsi öyrənmə üçün çox vacibdir.

***Konseptual bilik*** konsepsiyaların, prinsiplərin, nəzəriyyələrin, modellərin, təs-nifatların və s. başa düşülməsidir. Biz konseptual biliyi mütaliə, müşahidə, dinləmə, təcrübə aparma və şüurlu əqli fəaliyyət zamanı qazanırıq.

***Prosedural bilik*** tapşırıqların yerinə yetirilmə prosesində təzahür edir. Məsələn, şagird mərhələləri gözləməklə eksperiment aparır, ilk tibbi yardımın alqoritminə əməl edir, təhlükəsizlik qaydalarına riayət edir.

***Metakoqnitiv bilik*** insanın şəxsi öyrənmə fəaliyyətinin mahiyyəti barədə məlumatlı olması, öz əqli əməliyyatlarını idarə etməsi ilə bağlıdır.

Standartları uyğun bilik və fəaliyyət komponentlərinə ayıraq. Nümunə:

| **Sinif** | **Standart** | **Bilik** | **Növü** | **Fəaliyyət** | **Növü** |
|---|---|---|---|---|---|
| VI | 1.1.1. | Maddələrin xassələrini onların daxili quruluşu ilə | Konseptual | əlaqələndirir. | Tətbiq |
| VII | 4.1.1. | Yol nişanlarına uyğun davranış qaydalarını | Prosedural | nümayiş etdirir. | Tətbiq |
| VIII | 1.1.1. | Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını | Konseptual | əsaslandırır. | Dəyərlən-dirmə |
| IX | 1.1.1. | Dünyanın dərk olunmasında elmi və dini dünyagörüşləri | Konseptual | şərh edir. | Anlama |

Fəaliyyət məzmun standartlarında taksonomiyaların köməyi ilə sistemləşdirilir. Bu taksonomiyalar təlimdə əhəmiyyətli olan **idraki, emosional və psixomotor** taksonomiyalardır.

**İdraki taksonomiya.** İdrak fəaliyyətini əks etdirən standartlar, ilk növbədə, intellektual bacarıq və vərdişlərin inkişaf etdirilməsinə istiqamətlənir. İdraki taksonomiyalarda düşünmə bacarıqları sadədən mürəkkəbə doğru təsnif edilir. Aşağıdakı taksonomiya B. Blum tərəfindən təqdim edilmişdir.

| **Mərhələ** | **Fəaliyyət göstəricilərinin xüsusiyyətləri** | **Fəaliyyət göstəriciləri olan feillər** |
|---|---|---|
| *Bilmə* | Bu təlim nəticələri sadəcə yadda saxlamaqdan ibarətdir. | Yadda saxlamaq; xatırlamaq, tanımaq, yada salmaq |
| *Anlama* | Bu təlim nəticələri məlumatları sadəcə yadda saxlamadan bir addım irəli gedib, anlamanın aşağı səviyyəsini təmsil edir. | İzah etmək, şərh etmək, öz sözləri ilə təsvir etmək, oxşar və fərqli cəhətləri tapmaq, sözlərin mənasını şərh etmək |

| | | |
|---|---|---|
| *Tətbiq-etmə* | Bu təlim nəticələri anlamanın yüksək səviyyədə olmasını tələb edir. | Məsələnin həlli yolunu plan formasında təqdim etmək, ardıcıllığı müəyyən etmək, ümumi cəhətləri müəyyən etmək, yeni sözlərdən krassvord düzəltmək, əlaqə yaratmaq |
| *Təhlil-etmə* | Bu təlim nəticələri yüksək intellektual səviyyəni təmsil edir. Materialı həm məzmun, həm də quruluş baxımından anlamağı tələb edir. | Müqayisə etmək, əsas ideyanı müəyyənləşdirmək, fərqləndirmək, hissələrə ayırmaq, problemi müəyyənləşdirmək |
| *Sintez-etmə* | Bu təlim nəticələri yeni struktura malik nümunələrin yaradılması bacarıqlarını əhatə edir. | Dəyişdirmək, icad etmək, ixtira etmək, quraşdırmaq, layihə qurmaq, proqnozlaşdırmaq, təşkil etmək |
| *Dəyərlən-dirmə* | Bu təlim nəticələri bütün digər kateqoriyaları ehtiva etdiyinə görə bu iyerarxiyada ən yüksək səviyyədir. | Faydasını müəyyən etmək, nəticə çıxarmaq, münasibət bildirmək, tənqidi təhlil etmək, məsələ haqqında mühakimə yürütmək |

Sonralar Blumun davamçıları L.Anderson və D.Krasvol idraki taksonomiyanın üzərində işləmiş, onun daha təkmil variantını hazırlamışlar. Yeni iyerarxiyada “sintez” “dəyərləndirmə”dən yuxarı səviyyəyə keçirilmişdir. Doğrudan da, hər hansı bir şey barədə tənqidi fikir söyləmək, yeni bir şey yaratmaqdan daha sadə əqli fəaliyyətdir. Müəllimlər adətən idrak taksonomiyasının aşağı səviyyələrini əhatə edən tapşırıqlar (bilmə, anlama, tətbiqetmə) üzərində işləməyə meyillidirlər. Bunlar təməl rolunu oynayan vacib əqli fəaliyyətlərdir, lakin onların üzərində daha mürəkkəb fəaliyyətlərin (təhlil, dəyərləndirmə və sintez) qurulması dövrün tələbidir.

**Həyat bilgisi fənnində standartların bilik və bacarıqların növləri üzrə paylanması**

| **Sinif** | **Stan-dart** | **Bilik** | **Biliyin növü** | **Fəaliyyət** | **Bacarığın növü** | **Səviyyə** |
|---|---|---|---|---|---|---|
| ***I*** | 1.1.1 | Varlıqları, hadisələri sadə şəkildə... | deklarativ | ...təsvir edir. | idraki | Bilmə |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| ***II*** | 1.1.1 | Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə... | deklarativ | ...qruplaşdırır. | idraki | Anlama |
| ***III*** | 1.1.1. | Varlıqlar, hadisələr arasındakı əlaqələri sadə formada... | konseptual | ...şərh edir. | idraki | Təhlil |
| ***IV*** | 1.1.1. | Varlıq və hadisələrin mahiyyəti haqqında kicik... | konseptual | ...təqdimatlar edir. | idraki | Tətbiq |
| ***V*** | 1.1.1. | Cisim, maddə və təbiət hadisələrinin sadə... | konseptual | ...təsnifatını verir. | idraki | Tətbiq |
| ***VI*** | 1.1.1. | Maddələrin xassələrini onların daxili quruluşu ilə... | deklarativ | ...əlaqələndirir. | idraki | Təhlil |
| ***VII*** | 1.1.1. | Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə... | konseptual | ...əlaqələndirir. | idraki | Təhlil |
| ***VIII*** | 1.1.1. | Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını... | konseptual | ...əsaslandırır. | idraki | Dəyərləndirmə |
| ***IX*** | 1.2.1. | Qlobal ekoloji problemlərin həllinə dair təqdimat və layihələr hazırlayır. | konseptual | ...layihələr hazırlayır. | idraki | Sintez |

**Emosional taksonomiya.** Məktəbin bir missiyası da şagirdlərdə emosional-iradi sferanı inkişaf etdirməkdən ibarətdir. Bu mənada emosional taksonomiyalar barədə müəllimin məlumatlılığı təlimin təşkilinə yardım edir. Emosional taksonomiyalar şagirdlərin hislərinin düzgün inkişafına, hadisələrə yanaşma tərzinin formalaşmasına, onları dəyərləndirməsinə və ümumiyyətlə, emosiyaların idarə olunmasına və inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

D.Krasvol 1964-cü ildə emosional taksonomiyanın təsnifat sistemini yaratmışdır. Bu taksonomiyanın beş mərhələsi müəyyən olunmuşdur.

| Mərhələ | Fəaliyyət göstəriciləri | Fəaliyyət feilləri |
|---|---|---|
| Məqbulsayma | Şagird təlim prosesində iştirak üçün daxilən özünü hazır hiss edir. | Soruşur, seçir, təsvir edir, müəyyən edir, cavab verir |
| Reaksiyavermə | Şagird təlim prosesində fəallaşır, suallara, hadisələrə reaksiya verir. | Cavab verir, müzakirə edir, təbrik edir, nümayiş etdirir, danışır, yazır |
| Dəyərləndirmə | Şagird əşya və ya hadisəni dəyələndirir. Baş verən hadisələrə, obyektə münasibətləri təhlil edir. | Dəyərləndirir, şərh edir, qoşulur, dəvət edir, işləyir, öyrənir, mübadilə edir, bəraət qazandırır |
| Təşkiletmə | Obyekt və hadisələri təhlil edərək əlaqələndirir. Baş vermə səbəblərini müqayisə edir, öz dünyagörüşünü nümayiş etdirir. | Əlaqələndirir, dəyişir, tərtib edir, müqayisə edir, müdafiə edir, təşkil edir, hazırlayır, sintez edir |
| Dəyər və ya dəyərlər sistemini özündə əksetdirmə | Şagird davranışlarını nəzarətdə saxlayır və həyat tərzini müəyyənləşdirən dəyərlər nümayiş etdirir. | Fəaliyyət göstərir, seçimli yanaşır, aşkar edir, təsir göstərir, dinləyir, təklif edir, sınayır |

Cədvəldən də göründüyü kimi, şagirdlərin emosional reaksiyası müxtəlif səviyyələrdə ola bilər. Müəllimin vəzifəsi şagirdin hazırda durduğu səviyyəni müəyyən edib onu daha yüksək səviyyəyə qaldırmaq yollarını axtarmaqdan ibarətdir. Məsələn, şagird suala cavab verməkdən utanırsa, sual verməkdən çəkinirsə, deməli, o hələ “Məqbul sayma” səviyyəsinə çatmayıb. Belə şagirdi zor gücünə ən yüksək səviyyənin fəaliyyətlərini etməyə, məsələn, təkliflər verməyə məcbur etmək fayda verməyəcək. Belə hallarda “Niyə susursan?”, “Niyə sual vermirsən?” və s. bu tipli müraciətlər də yersizdir. Əksinə, öyrənmə mühiti, əsasən də psixoloji mühit elə təşkil olunmalıdır ki, şagird tədricən prosesə qoşula bilsin.

Emosional taksonomiya emosional intellekt məfhumu ilə sıx bağlıdır. Çünki emosional taksonomiya həmin intellektin inkişaf səviyyəsini strukturlaşdırır. XX əsrin sonlarından başlayaraq pedaqogikada emosional intellekt və onun əhəmiyyəti barədə xeyli müzakirələr aparılır. Emosional intellekt insanın özünün və başqalarının hislərini anlamaq, idarə etmək və

məqsədlərə çatmaq üçün bu hislərdən istifadə etmək bacarığıdır. Bu barədə daha ətraflı məlumatı müəllimlər üçün hazırlanmış “Emosional intellekt” adlı öyrədici animasiya filmində tapa bilərsiniz: http://www.tipii.edu.az/az/videos#lg=1&slide=27

Öz emosional intellektinizi ölçmək üçün bu keçiddə verilmiş testdən istifadə edə bilərsiniz: http://www.tipii.edu.az/az/article/209-emosional-intellekt-zaka-testi

Emosional intellektin inkişafı üçün xüsusi dərs saatı və ya xüsusi tapşırıqların verilməsi nəzərdə tutulmur. Düzgün təşkil edilmiş istənilən öyrənmə prosesində emosional intellekt inkişaf etdirilə bilər.

**Psixomotor (hərəki) taksonomiya.** Məzmun standartlarında öz əksini tapmış psixomotor bacarıqlar hərəki fəaliyyətləri əhatə edir. Kurikulumda psixomotor bacarıqların formalaşdığı əsas fənlər fiziki tərbiyə, texnologiya, təsviri incəsənət və musiqi fənləridir. Digər fənlər, o cümlədən Həyat bilgisi fənni də bu və ya digər dərəcədə iradi və qeyri-iradi psixomotor bacarıqlarla əlaqədardır. Psixomotor (hərəki) bacarıqların iyerarxiyasının elmi-nəzəri əsasını K.Mur təklif etmişdir.

| **Səviyyə** | **Fəaliyyətin göstəriciləri** | **Fəaliyyət feilləri** |
|---|---|---|
| Hiss etmək | Fəaliyyət həyata keçirilməzdən əvvəl mənəvi durumu nizamlanır. | Seçir, aşkar edir, fərqləndirir, ayırır, müəyyən edir, əlaqələndirir |
| Hazır olmaq | Xüsusi növ hərəkətlərin icra edilməsinə hazırlaşır. | Başlayır, nümayiş etdirir, izah edir, hərəkət edir, göstərir |
| Bənzətmək (təqlid etmək) | Kompleks vərdişlərdən təliminin ilkin mərhələsində istifadə edir. | Qurur, götür-qoy edir, təkrarlayır, hissələrə bölür, yerinə yetirir, təhlil edir, əlaqələndirir, səy göstərir, ölçür, qurur, təşkil edir |
| Mexanizm | Fəaliyyətin icrası zamanı özünə inam nümayiş etdirir. | Müqayisə edir, təhrifləri aradan qaldırır |
| Mükəmməl icra | Mükəmməl vərdişlər kimi formalaşmış mürəkkəb fəaliyyətlər nümayiş etdirilir. | İfa edir, icra edir |

| | | |
|---|---|---|
| Uyğunlaşma | Problemli situasiyanı nəzarətdə saxlamaq məqsədi ilə və ya xüsusi tələblərə uyğunlaşmaq üçün fərd öz davranışında dəyişiklik edir. | Uyğunlaşdır, dəyişir, yenidən qurur, yenidən təşkil edir, islah edir, yeniləşdirir |
| Yaradıcılıq | Xüsusi situasiya və ya problemin həllinə cavab verən yeni növ fəaliyyət yaradır. | Tərtib edir, qurur, birləşdirir, konstruksiya edir, planlaşdırır, yaradır |

Beləliklə, psixomotor taksonomiya şagirdlərdə inkişaf etdirməli olduğumuz hərəki fəaliyyətlərin iyerarxiyasını əks etdirir. Burada da sadədən mürəkkəbə doğru inkişaf vardır. Məsələn, Həyat bilgisi dərsində şagirdlər sarğı qoymağı öyrənərkən psixomotor bacarıqları aşağıdakı ardıcıllıqla formalaşır:

1. Müəlimin və ya daha səriştəli yoldaşlarının sarğı qoymasını müşahidə edirlər;
2. Özləri sarğı qoymağa cəhd edirlər;
3. Sarğı qoyurlar;
4. Sarğını daha inamlı şəkildə qoyurlar;
5. Sarğını keyfiyyətli qoyurlar;
6. Qeyri-standart situasiyada sarğı qoymağı bacarırlar;
7. Sarğı qoymaq əvəzinə daha səmərəli vasitə təklif edirlər.

**Standartlar əsasında təlim məqsədlərinin müəyyən olunması.** Həyat bilgisi fənninin standartları dərsin təlim məqsədlərinin müəyyənləşməsi üçün mənbə rolunu oynayır. Sinif üzrə standartlarda bacarıqların xırdalanmış şəkildə verilməsi  müəllimin təlim məqsədlərini düzgün müəyyənləşdirməsi üçündür. Hər bir sinifdə formalaşan kiçik bacarıqlar ümumtəhsilin sonunda daha böyük bacarıqların yaranması üçün baza rolunu oynayır.

Standartlarda verilən bacarıqlar taksonomiyalara görə təsnif olunur və qruplaşdırılır. Məsələn, “sadalayır” feili idraki taksonomiyanın “bilmə”, “izah edir” feili “anlama”, “konkret situasiyada nümayiş etdirir” “tətbiqetmə” mərhələlərini göstərir. Dərsin təlim məqsədini müəyyən edərkən istifadə edilən feillər standartlarda işlənən feilləri aşmamalıdır, yəni məzmunca ondan daha geniş və ya dərin olmamalıdır. Müəllimin hazırladığı tapşırıqlar təlim məqsədini reallaşdırmağa xidmət etdiyinə görə tapşırıqdakı fəaliyyətlər də məqsədlərdə yazılmış feilləri aşmamalıdır.

Standart əsasında təlim məqsədi yazarkən bilik hissəsini konkret movzuya uyğunlaşdırmaq lazımdır.

Nümunə:

1.2.1.İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.

Məqsəd

**1. İnsanın ətraf mühitə təsirinin müsbət və mənfi cəhətlərinə müqayisəli şəkildə münasibət bildirir.**

1.1.1. Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir.

Məqsəd

**1. Cismi, maddəni və hadisəni bir-birindən fərqləndirir.**

**2. Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir.**

4.3.1. Fövqəladə hadisələr zamanı ilkin yardım göstərir.

Məqsəd

**1. Günvurma zamanı ilk tibbi yardım bacarığını nümayiş etdirir.**

3.3.1. Dini inancların ümumi və fərqli cəhətlərini müqayisə edir.

Məqsəd

**1. Dünyəvi dinləri müqayisə edir.**

## Təlim strategiyaları

Həyat bilgisi dərslərinin təşkilində pedaqoji prosesə verilən aşağıdakı tələblərə əməl olunmalıdır:

**Pedaqoji prosesin tamlığı** təlim məqsədlərinin kompleks şəkildə həyata keçirilməsidir. Həyat bilgisi dərsləri eyni zamanda öyrədici, inkişafetdirici, tərbiyəedici olmalıdır.

**Təlimdə bərabər imkanların yaradılması** o deməkdir ki**,** bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir.

**Şagirdyönümlülük –** şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir.

**İnkişafyönümlülük –** şagirdlərin idrak fəallığının izlənilməsi, nailiyyətlərinin təhlil edilməsi yolu ilə bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsinin tənzimlənməsidir.

**Fəaliyyətin stimullaşdırılması –** şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlərin qeyd olunması, dəyərləndirilməsi, istiqamətləndirilməsidir.

**Dəstəkləyici mühitin yaradılması** pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkilidir. “Dəstəkləyici mühit”, “öyrədici mühit”, “təlim mühiti” ifadələri eyni mənanı ifadə edirlər.

## Müasir təlimin komponentləri

Təlim şagirdlərin bilik, bacarıq, vərdiş və dəyərlərə yiyələndiyi pedaqoji prosesdir. Təlimin əsas komponentləri **məzmun, metod, mühit və qiymətləndirmədir**. ***Təlimin məzmunu*** dedikdə məzmun standartları və tədris proqramları nəzərdə tutulur. Başqa sözlə, *şagird nəyi öyrənməlidir*? ***Təlim metodları*** öyrənmənin hansı üsullardan istifadə edilərək təşkil olunmasıdır. Başqa sözlə, *şagird necə öyrədilməlidir*? ***Öyrədici mühit*** dedikdə təlim-tərbiyə prosesinin *hansı şəraitdə təşkili* nəzərdə tutulur. ***Qiymətləndirmə*** şagirdlərin təlim fəaliyyətini izləməyi, əldə etdiyi nəticələri *necə ölçməyi* əks etdirir.

Təlimin müvəffəqiyyətlə qurulması üçün onun bütün komponentlərinin qarşılıqlı əlaqəsi təmin edilməlidir. Yəni Həyat bilgisi fənninin məzmununa uyğun təlim metodları, öyrədici mühit və qiymətləndirmə üsulları seçilməlidir.

**Öyrədici mühit.** Öyrədici mühit – təlim-tərbiyə prosesinin təşkil olunduğu şəraitdir.

Şagirdləri əhatə edən öyrədici mühit ə*şyəvi, informasiya və sosial-psixoloji mühit* olaraq qruplaşdırılır:

**Əşyəvi mühit** təlimin maddi-texniki təminatını özündə cəmləşdirir. Əşyəvi mühit də təbii mühit, məktəbin maddi mühiti, məişət mühiti olaraq üç yerə ayrılır. *Təbii mühit* canlı və cansız təbiətin bilavasitə müşahidə oluna bilən əşyalarıdır ki, Həyat bilgisi dərslərində fəal istifadə edilməlidir. *Məktəbin maddi mühiti* dərsliklər, lövhələr, əyani vəsaitlər, texniki avadanlıqlar, laboratoriyalar, məktəb ləvazimatları və digərləridir. *Məişət mühiti* yaşayış yerinin maddi əhatəsi, maddi-mədəniyyət əşyaları, ictimai və mədəni müəssisələrdir.

**İnformasiya mühiti** şagirdin təlim ehtiyaclarını təmin etməyə yönəldilmiş məlumat mənbələri (dərsliklər, ensiklopediyalar, KİV, sosial əhatə), sistemli proqram təminatı və məlumat ötürmə vasitələridir. Nəzərə almaq lazımdır ki, əgər uşaqlara təcrübə keçirmək, əl vurmaq, eşitmək, görmək, hiss etmək imkanı yaradılırsa, onlar məlumatı asanlıqla mənimsəyirlər.

**Sosial-psixoloji mühitə** şagirdin həm özü, həm də digər insanlarla qarşılıqlı əlaqələri aiddir: "şagird-şagird", "müəllim-şagird", "müəllim-şagird-valideyn", "müdiriyyət-şagird-valideyn", "ailə-şagird", "dostlar-şagird". Bu əlaqələr qarşılıqlı hörmət əsasında qurulduqda psixoloji mühit təhlükəsiz və rahat olur. Qeyd etmək lazımdır ki, münaqişəsiz insan kollektivi təsəvvür etmək qeyri-mümkündür, lakin yaranmaqda olan münaqişələr dialoq vasitəsilə qabaqlanırsa, yaranmış münaqişələr "qələbə-qələbə" müstəvisində, yəni hər iki tərəfin maraqları qorunmaqla konstruktiv şəkildə həll edilirsə, deməli, sosial-psixoloji mühit sağlamdır.

**Fəal dərsin mexanizmləri.** Bacarıqlara əsaslanan kurikulum şagirdlərdən idraki fəallıq və əməkdaşlıq tələb edir. Fəal dərsin aşağıdakı mexanizmləri vardır:

**Mexanizm 1. Problemli vəziyyətin yaradılması**

Problemli vəziyyət – məsələnin həllində ziddiyyətlərin, müxtəlif nöqteyi-nəzərlərin və variantların mövcudluğunu özündə ehtiva edir. Bu cür vəziyyətin yaradılması şagirdlərin təfəkkürünü fəallaşdırır, tədqiqat fəaliyyətini inkişaf etdirir. Məsələn, əvvəlki misala qayıdaq: sarğının qoyulması halında problemli vəziyyət kimi ekstremal şəraitdə tənzifsiz, əl altda olan vasitələrdən istifadə etməklə ilk yardımın göstərilməsi yollarının müəyyən edilməsi ola bilər.

**Mexanizm 2. Müəllim – bələdçi (fasilitator), şagird – tədqiqatçı, kəşf edən**

Fəal təlim prosesində şagirdləri biliklərə aparan yolda müəllimin əsas funksiyası fasilitatorluqdur. Müəllim liderliyinin bu yeni forması müəllimlə şagirdin birgə fəaliyyətinə əsaslanır. Müəllimin vəzifəsi şagirdə öyrənməyi öyrətməkdir. Şagirdin mövqeyi "kəşf edən", "tədqiqatçı" mövqeyidir. Şagird ona verilən məsələləri və problemləri müstəqil tədqiqat prosesində həll etməyə çalışır. Məsələn, siz şagirdlərə belə bir tapşırıq vermisiniz: "Yaşadıqları məhəllədəki ictimai yerlərin sanitar vəziyyətini monitorinq etmək və təkliflər hazırlamaq". Tapşırığı yerinə yetirməyə hazırlaşan şagirdlərə yönəldici suallar verməklə onların fəaliyyətlərini istiqamətləndirə bilərsiniz:

- İctimai yerlər kateqoriyasına nələri əlavə edəcəksiniz? Niyə?
- Monitorinqi sutkanın hansı vaxtlarında keçirmək daha faydalı olar?
- İş bölgüsünü yenidən aparmaq barədə fikirləşirsinizmi? və s.

**Mexanizm 3. Dialoq və əməkdaşlığın zəruriliyi**

Verilmiş problemin həlli müxtəlif fərziyyə və baxışların nəzərdən keçirilməsini və ən optimal həll yolunun tapılmasını tələb edir. Bu isə təlim prosesinin digər iştirakçıları ilə fəal əməkdaşlıq və dialoq nəticəsində əldə oluna bilər. Yenə də yuxarıdakı tapşırığa ("Yaşadıqları məhəllədəki ictimai yerlərin sanitar vəziyyətini monitorinq etmək və təkliflər hazırlamaq") qayıdaq: bu tapşırığı keyfiyyətli və əhatəli yerinə yetirmək üçün 5-6 nəfər şagirdin qrup halında işləməsi, vəzifə bölgüsü aparması, ideyalar generasiyasını birlikdə təşkil etməsi lazımdır.

**Mexanizm 4. Psixoloji dəstək: hörmət və etibar**

Müəllimin şagirdlərə hörməti, onları olduğu kimi qəbul etməsi və daim dəstəkləmək meyli, bacarıqlarına inandığını göstərməsi onlarda özünə inam, müəllimə qarşı isə hörmət və etibar hissini artırır. Müəllimdə şagirdlərə qarşı hörmət və etibar hissini necə formalaşdırmaq barədə daha ətraflı öyrənmək üçün "İntizamlı sinif necə qurulur" mövzusunda öyrədici animasiya filminə baxın:

http://www.tipii.edu.az/az/videos#lg=1&slide=0

## Fəal təlimin iş formaları və üsulları

Aşağıdakı fikir fəal təlimə epiqraf hesab oluna bilər:

*Eşidirəm – unuduram,*

*Görürəm – yadda saxlayıram,*

*Edirəm – dərk edirəm. (Konfutsi)*

Fəal təlim prosesində tapşırıqlar fərdi, cütlərlə, qruplarla və bütün siniflə birlikdə yerinə yetirilir. Müəllim iş formasını və metodu seçərkən onların əsas xüsusiyyətlərini, tətbiqi ardıcıllığını və dərsin məqsədlərinə uyğunluğunu nəzərə almalıdır. Qrupa tapşırıq verərkən diqqət edin ki, tapşırıq doğurdan da bir neçə nəfərin fəaliyyətini nəzərdə tutsun. Bir nəfər tərəfindən yerinə yetirilməsi mümkün olan tapşırığı bir neçə nəfərə vermək mənasızdır.

Həyat bilgisi dərslərində istifadəsi tövsiyə edilən təlim üsulları bunlardır:

**Kublaşdırma**

Şagirdlərin hər hansı problemə inteqrativ yanaşma bacarığını inkişaf etdirmək məqsədilə istifadə olunur.

***Qaydalar:***

1. Kartondan kubun maketi hazırlanır. Şagirdlərin fəaliyyətini istiqamətləndirmək üçün kubun hər bir tərəfinin üzərində bir tapşırıq yazılır: 1 – təsvir et, 2 – müqayisə et, 3 – təhlil et, 4 – assosiasiya yarat, 5 – tətbiq et, 6 – mühakimə et.

2. Dərs prosesində müzakirə olunacaq mövzunun adı elan edilir.

3. Şagirdlər qruplara bölünür. Mövzunun (predmet, hadisə və ya situasiyanın) qruplarda müzakirəsi tapşırıq əsasında aparılır:

- təsvir et: predmetin ölçüsü, rəngi, forması, yerləşməsinə dair məlumat verilir;
- müqayisə et: problemin oxşar və fərqli cəhətləri əhatə edilir;
- assosiasiya yarat: mövzu ilə əlaqədar yaranan fikirlər qeyd olunur;
- təhlil et: onun tərkibini, mahiyyətini izah etmək tələb olunur;
- tətbiq et: mövzunun həyati əhəmiyyəti, ondan harada istifadə imkanları müəyyən olunur;
- mühakimə et: mövzuya dair fikirlər səsləndirilir, fikirlər və mövqelər (lehinə və əlehinə) dəlillərlə əsaslandırılır.

4. Şagirdlərin işinin yekunu flipçartda və ya iri kubun üzərində yazılır və sinifdə nümayiş etdirilir.

**Şaxələndirmə (klaster)**

Şaxələndirmə metodunun köməyi ilə şagirdlərin təfəkkürü inkişaf etdirilir. Bu metod şagirdi düşünməyə cəlb etmək, onda mövzuya dair maraq yaratmaq, dünyagörüşünü

müəyyənləşdirmək, biliklər arasında əlaqə yaratmaq və s. kimi məsələləri əhatə edir. Şaxələndirmə *fərdi, cütlər, qrup və böyük kollektivlə iş* formalarında təşkil oluna bilər.

***Qaydalar:***

1. Lövhənin (iş vərəqlərinin) mərkəzində çərçivə daxilində mövzunun əsas mənasını əks etdirən açar söz və ya cümlə yazılır.

2. Tapşırıq üçün vaxt müəyyənləşdirilir (5-10 dəqiqə).

3. Şagirdlərə çərçivədəki açar sözlə bağlı ideyaları, dəlilləri, obrazları əks etdirən söz və ya cümlələri söyləmək tapşırılır. Yada düşən bütün anlayışlar mərkəzdəki sözün ətrafında yazılır və onunla xətlərlə birləşdirilir. Bu anlayışların çərçivəsi başqa bir rəngdə olmalıdır.

4. Yazılmış anlayışlarla əlaqəli mümkün qədər çox fikir yazmaq və onları əlaqələndirmək tövsiyə olunur. Belə ki, "budaqlara" "kiçik budaqlar" da əlavə olunur, yeni məntiqi əlaqələr qurulur. Nəticədə mövzu ilə bağlı beynimizdə olan məlumatların qrafik görüntüsü alınır.

5. Vaxt bitəndən sonra alınan nəticələr müzakirə edilir və ümumiləşdirmə aparılır.

Şaxələndirmə metodundan motivasiya, tətbiqetmə və refleksiya mərhələlərində istifadə etmək olar.

**Qərarlar ağacı**

«Qərarlar ağacı» üsulu mürəkkəb və birmənalı olmayan vəziyyətlərdə qərar qəbulunu asanlaşdırır, düşünülmüş qərar qəbul etməyə kömək edir. «Qərarlar ağacı» üsulunun tətbiqi zamanı suallar, problemlər qoyulur və onların həlli yolları axtarılır.

***Qaydalar:***

1. Əvvəlcədən təhlil ediləcək problem və onun həlli yollarının bir neçə variantı müəyyənləşdirilir, qruplar üçün cədvəllər hazırlanır.

2. Tapşırığın yerinə yetirilməsi üçün vaxt təyin edilir (15-20 dəqiqə).

3. Şagirdlər 4-6 nəfərlik qruplara bölünür. Hər qrupa verilən cədvəli doldurmaq tapşırılır.

4. Qruplar iş zamanı problemin bütün verilmiş həlli yollarını təhlil edir, hər variantın müsbət və mənfi cəhətlərini müəyyənləşdirirlər, sonra isə problemlə bağlı qərar qəbul edib variantlardan birini seçirlər.

5. Qruplar işini bitirdikdən sonra cədvəllərin qərar hissəsinin üstü örtülür. Təqdimat zamanı qrupların nümayəndələri yazıları oxuyur, ancaq gəldiyi qərarı bildirmirlər. Bunu müəyyənləşdirmək digər qruplara təklif edilir. Bundan sonra qərarlar yazılan hissə açılır və şagirdlərin mövqeləri müqayisə edilir.

6. Şagirdlər mümkün qərarların bütün variantlarını təhlil edir, hər bir variantın müsbət və mənfi cəhətlərini göstərirlər. Bütün variantlara baxdıqdan sonra şagirdlər müsbət və mənfi cəhətləri nəzərə alaraq qərar qəbul edir – variantlardan birini seçirlər.

**Venn diaqramı**

Venn diaqramı nisbətən kəsişən iki və ya daha artıq çevrə üzərində qurulur. Venn diaqramı metodunun tətbiqi zamanı şagirdlərdə cisim və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək və təhlil etmək bacarıqları formalaşır. Venn diaqramı *cütlər*, *qrup* və *böyük kollektivlə iş* formaları vasitəsilə təşkil olunur. Venn diaqramı metodundan tətqiqat mərhələsində, nəticələrin çıxarılmasında, tətbiqetmədə istifadə etmək mümkündür.

***Qaydalar:***

1. Müqayisə olunacaq cisim və hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanılır).
3. Şagirdlərə təlimat verilir (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı deyilir).
4. Müqayisə olunan obyektlər təsvir olunur: fərqli cəhətlər sol və sağ tərəfdə, oxşar cəhətlər kəsişmə hissəsində qeyd olunur.
5. Müqayisə nəticəsində şagirdlər ümumiləşdirmə aparırlar.

**Tədris prosesinin planlaşdırılması**

Tədris prosesinin planlaşdırılmasının iki növü var:

- perspektiv (illik və tematik) planlaşdırma;
- gündəlik (cari) planlaşdırma.

***Perspektiv planlaşdırma*** aparmaq üçün müəllim:

1. Tədris vahidlərinin və mövzuların ardıcıllığını müəyyənləşdirir;
2. Məzmun standartlarına əsasən tədris vahidi və mövzular üzrə dəqiqləşdirmələr aparır;
3. İnteqrasiya imkanlarını müəyyən edir;
4. Mövzuların məqsədyönlü vaxt bölgüsünü aparır;
5. Mövzuları dəyişə və ya artıra bilər;
6. Əlavə resurslar seçə bilər;
7. Mövzular üzrə vaxt bölgüsündə dəyişikliklər edə bilər.

**Perspektiv (illik) planlaşdırma**

| Standartlar | Tədris vahidi | Mövzu | Saat | Tarix |
|---|---|---|---|---|
| | | | | |

Verilən sütunların perspektiv planda qeyd olunması mütləqdir. Lakin müəllim məqsədə uyğun olan və vacib bildiyi sütunları da planına əlavə edə bilər (resurs, inteqrasiya, qiymətləndirmə və s.).

***Gündəlik (cari) planlaşdırma.*** Müəllim gündəlik planlaşdırmanı hazırlayarkən aşağıdakı suallara cavab verməlidir:

- Nə öyrəniləcək?
- Necə öyrəniləcək?
- Hansı şəraitdə öyrəniləcək?
- Təlim fəaliyyəti necə qiymətləndiriləcək?

Gündəlik dərsin planlaşdırılması zamanı müəllim aşağıdakıları müəyyənləşdirməlidir:

- Mövzu;
- Standart;
- Təlim məqsədi;
- İnteqrasiya;
- İş forması;
- İş üsulları;
- Resurslar;
- Dərsin mərhələləri.

## Fəal dərsin növləri

**3 mərhələli dərs**

1. Düşünməyə yönəltmə (sövqetmə);
2. Dərketmə;
3. Düşünmə (refleksiya).

**7 mərhələli dərs**

1. Motivasiya;
2. Tədqiqatın aparılması;
3. Məlumat mübadiləsi;
4. Məlumatın müzakirəsi və təşkili;
5. Nəticə;
6. Yaradıcı tətbiqetmə;
7. Refleksiya və qiymətləndirmə.

Dərsin məqsədindən, mövzusundan, situasiyadan və s. asılı olaraq bu və ya digər dərs növünü seçmək olar. Əsas olan mərhələlərin sayı deyil, dərsdəki məntiqi ardıcıllığın gözlənilməsi, şagirdlərin əqli fəallığının və əməkdaşlığının təmin edilməsidir.

**Oyunların təlimdə rolu**

Məlumdur ki, əyləncəli oyun şəklində verilmiş biliyi uşaqlar daha tez və asan qavrayırlar. Oyun elə bir təlim növüdür ki, bu zaman şagird aktiv və yaradıcı şəkildə cəmiyyətin davranış qaydalarını, normalarını, insanlar arasında qarşılıqlı münasibətləri öyrənir. Bu fəaliyyət növü şagirdlərin sosial davranışına, onların həyata və bir-birinə olan münasibətlərinin formalaşmasına əsaslı təsir edir. Məşhur pedaqoq A.S.Makarenko uşaq oyunlarının rolunu belə xarakterizə etmişdir: *"Oyun uşaqlar üçün böyüklərin iş fəaliyyəti qədər dəyərlidir. Uşaq oyunda özünü necə aparırsa, gələcəkdə işləyəcəyi yerdə də bir çox hallarda özünü elə aparacaq. Beləliklə, gələcəyin lideri oyun oynayaraq təhsil alır...".*

Məsələn, rollu oyun oynayarkən şagird hər hansı bir obrazı canlandıraraq, öz daxili dünyasını zənginləşdirir. Psixoloqlar hesab edirlər ki, rollu oyun uşaq oyunlarının ən yüksək formasıdır. Rollu oyun uşaqların idraki inkişafında böyük əhəmiyyət kəsb edir, onlarda diqqəti və yaddaşı inkişaf etdirir. Tərəfdaşlar ilə birgə oyun zamanı uşaqlar ünsiyyət qurmağı, başqalarının istək və fəaliyyətlərini nəzərə almağı, fikirlərini müdafiə etməyi, həmçinin birgə planlar hazırlamağı və həyata keçirməyi öyrənirlər. Müxtəlif rolları yerinə yetirərkən uşaq müxtəlif fəaliyyətlərin bütün aspektlərini əhatə etməyə başlayır ki, bu da öz növbəsində onun düşüncə qabiliyyətini inkişaf etdirməyə, başqasının fikrini qəbul etməyə kömək edir.

Oyunların didaktik əhəmiyyəti barədə daha çox öyrənmək üçün “Oyun və öyrənmə” adlı videomühazirəyə baxın:

http://www.tipii.edu.az/az/videos#lg=1&slide=21

Oyunların bu müxtəlifliyi fənlərin tədrisini şagirdlər üçün daha maraqlı və cəlbedici etməyə imkan yaradır. Qeyd edək ki, Həyat bilgisi dərslərində didaktik, rollu, mütəhərrik oyunlardan istifadə etmək olar. “Fərd və cəmiyyət”, “Mənəviyyat”, “Sağlamlıq və təhlükəsizlik” məzmun xətlərinin öyrənilməsində oyunlardan istifadə xüsusilə faydalıdır. Avropa Şurasının dəstəyi ilə hazırlanmış “Kompasito” vəsaitindəki dərs icmalları müxtəlif yaş qrupundan olan uşaqlara oyunlar vasitəsilə təməl insan hüquqlarını və demokratik birgə yaşayış qaydalarını öyrətmək üçün məqsədəmüvafiqdir. Alman sosioloqu və pedaqoqu Lotar Krappmanın yanaşması əsasında hazırlanmış “Kompasito”da uşaqlara öz hüquqlarını reallaşdırmağı bacaran gənc vətəndaş kimi baxılır. “Kompas” gənclər, “Kompasito” isə uşaqlarla işləyən müəllimlər üçün nəzərdə tutulmuşdur.

Bu hazır dərs icmallarını aşağıdakı keçiddən yükləyə bilərsiniz:

http://www.tipii.edu.az/az/article/91-quot-kompasito-quot-dars-icmallari

Burada siz həmçinin anlayışların izahını (məsələn, Zorakılıq, İştirak, Gender bərabərliyi, Demokratiya və s.) da tapacaqsınız ki, bunlardan paylama materialı kimi istifadə edə bilərsiniz.

Nəzərə almaq lazımdır ki, təhsilin istənilən pilləsində oyunlardan məqsədli istifadə şagird nailiyyətinə müsbət təsir edir.

## Ekskursiya

Məktəbdə təlim dərslərlə yanaşı, ekskursiyalar şəklində də aparılır. "Ekskursiya" sözü latın mənşəli (excursion) olub, "hər hansı bir yeri və ya obyekti öyrənmək üçün təşkil edilən gəzinti" deməkdir. Ekskursiya elə bir təlim formasıdır ki, şagirdlər hər hansı obyekt və yer haqqında məlumatları həmin yeri (təbiət, zavod, tarixi abidə) gedib görməklə əldə edirlər.

**Ekskursiyaların funksiyaları.** Ekskursiyalar nəzəriyyə və praktika arasındakı əlaqənin didaktik prinsipinin həyata keçirilməsini təmin edir və aşağıdakı didaktik funksiyaları yerinə yetirir:

- ekskursiyaların köməyi ilə şagirdlər öyrənilən obyekt və hadisələrlə birbaşa tanış olurlar;
- ekskursiyalar tədrisin elmi və praktiki xarakterini artırmağa, onun həyat və təcrübə ilə əlaqəsini gücləndirməyə imkan verir;
- ekskursiyalar politexniki təhsilin inkişafına kömək edir, şagirdlərə istehsal ilə tanış olmaq imkanı verir;
- ekskursiyalar şagirdləri sənaye, kənd təsərrüfatı, xidmət sahələrinin işçilərinin əməyi ilə yaxından tanış edərək, onların peşə seçimində böyük rol oynayır.

**Ekskursiyaların növləri.** Həyat bilgisi fənninin tədris planında ekskursiyalar müəyyənləşdirilə və onun təşkili üçün vaxt ayrıla bilər. Müxtəlif növ ekskursiyalardan istifadə oluna bilər:

**İstehsalat ekskursiyaları** dedikdə, zavod və fabriklərdə, sənaye və tikinti şirkətlərində, kənd təsərrüfatı sahələrində təşkil olunan təlimlər nəzərdə tutulur. Bu ekskursiyalar şagirdləri istehsalatla, müasir sənaye sahələrinin və kənd təsərrüfatının vəziyyəti ilə tanış edir, onların politexnik dünyagörüşünü genişləndirir, şagirdlərdə əməksevərlik hissini tərbiyə edir.

**Elmi ekskursiyaların** təşkili də Həyat bilgisi fənninin tədrisində mümkündür. Bu ekskursiyalar zamanı məqsədə uyğun olaraq şagirdlər elmi-tədqiqat müəssisələrinə, sahəyə, meşəyə, çəmənliyə, çay, göl və dəniz kənarlarına, zooparka aparılır.

**Tarixi və ədəbi ekskursiyalar** incəsənət sərgilərində, sənət qalereyalarında, kitab evlərində, arxivdə, ədəbi-tarixi muzeylərdə təşkil edilir.

**Diyarşünaslıq ekskursiyaları** ölkənin təbiəti və tarixini öyrənmək məqsədi ilə təşkil olunan ekskursiyalardır.

**Kompleks ekskursiyalar** özündə bir neçə fənnin məzmununu ehtiva edir.

**Ekskursiyanın keçirilmə mərhələləri:**

1. Ekskursiya üçün hazırlıq işləri:

- məqsədin müəyyənləşdirilməsi;
- öyrəniləcək obyektinin seçilməsi;
- şagirdlər qarşısında konkret sual və tapşırıqların qoyulması;
- ekskursiyaya rəhbərlik edəcək şəxsin müəyyənləşdirilməsi;
- ekskursiya üçün seçilmiş müəssisə ilə tanışlıq.

Müəllim ekskursiyanın məqsədi, məzmunu, izahat metodu barədə oranın əməkdaşı ilə razılaşır.

2. Ekskursiyanın əsas hissəsi:

Obyektin öyrənilməsi müşahidə, söhbət, nümayiş və izah üsulları ilə həyata keçirilir.

3. Nəticənin çıxarılması:

Ekskursiyanın sonunda şagirdlərin yeni öyrəndiyi biliklər ümumiləşdirilir.

## Həyat bilgisi dərslərində qiymətləndirmənin aparılması

Məktəbdaxili qiy-mətləndirmə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 iyun 2010-cu il tarixli, 103 nömrəli qərarı ilə təsdiq olunmuş “Ümumi təhsilin dövlət standartları və proqramları (kurikulumları)”na, 13 yanvar 2009-cu il tarixli, 09 nömrəli qərarı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”na və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq olunmuş “Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası” sənədlərinə əsaslanaraq həyata keçirilir.

Məktəbdaxili qiymətləndirmə *diaqnostik* (ilkin səviyyənin qiymətləndirilməsi), *formativ* (fəaliyyətin izlənərək qiymətləndirilməsi) və *summativ* (nailiyyətin qiymətləndirilməsi) qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə**

Diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirməklə müəllimə şagirdlərin potensial imkanlarını nəzərə alan təlim strategiyalarını seçməyə imkan verir.

Məsələn, V sinifdə belə bir diaqnostik qiymətləndirmə vasitəsindən istifadə etmək olar:

Ad:____________________ Sinif:__________

Soyad:_________________ Tarix:__________

1. **Siz hansı hüquqlarınızdan istifadə edirsiniz?**

___________________________________________________________________________

__________________________________________________________________

**2. Şagirdlərin vəzifələrinə aid olanları müəyyənləşdirin:**

1. Müəllimlərin şərəf və ləyaqətlərinə hörmət etmək
2. Digər şagirdləri səhvlərinə görə tənqid etmək
3. Məlum olmayanı öyrənmək üçün suallar vermək
4. Yenilikləri öyrənməyə çalışmaq
5. Bütün dərslərdə sakit oturmaq

A) 2, 4, 5 B) 1, 3, 5 C) 2, 3, 4 D) 1,3, 4

**3. İstehlak nədir?**

A) Hazır məhsullardan istifadə

B) Hazır məhsullara nəzarət

C) Hazır məhsulların satışı

D) Hazır məhsulların qorunması

**4. Kimi şəxsiyyət hesab edirsiniz?**

___________________________________________________________________________

_____________________________________________________________________

**5. Sığortada neçə tərəf iştirak edir?**

A) 3  B) çox  C) 2  D) 4

**6. Sizin fikrinizcə, təhsil almaq vacibdirmi?**

______________________________________________________________________________

______________________________________________________________________

**7. Sağlamlığa mənfi təsir göstərən amillər hansılardır?**

___________________________________________________________________________

**8. Təbiəti qorumaq nə üçün lazımıdır?**

______________________________________________________________________________

_______________________________________________________________________

**9. Hansı təbii fəlakətləri tanıyırsınız?**

___________________________________________________________________________

**10. Hansı təbii ehtiyatları tanıyırsınız?**

___________________________________________________________________________

**11. İslam dininin müqəddəs kitabı hansıdır?**

A) Tövrat  B) AR-nın konstitusiyası  C) Bibliya  D) Quran

**12. Müasir cəmiyyətin hansı qlobal prolemləri var?**

_________________________________________________________________________

**13. Ekologiya deyəndə nə başa düşürsünüz?**

_________________________________________________________________________

**14. Azərbaycanda hansı ekoloji problemlər sizi narahat edir?**

_________________________________________________________________________

**Formativ qiymətləndirmə.** Formativ qiymətləndirmə şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənməsinə yönəlmiş fəaliyyətini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı istiqamətləndirmək məqsədilə aparılır.

Formativ qiymətləndirmə dərsi müşayiət edən prosesdir. Fənn üzrə aparılan formativ qiymətləndirmə şagirdin ehtiyaclarını öyrənmək, uğur qazana bilməməsinin səbəblərini araşdırmaq və onun inkişafını təmin etmək məqsədilə müntəzəm olaraq həyata keçirilir.

Formativ qiymətləndirmənin nəticələri şagirdə və valideynlərə məktəbli kitabçasında qeydlər etməklə çatdırılır.

**Formativ qiymətləndirməni həyata keçirən müəllim aşağıdakıları nəzərə almalıdır:**

Hər bir dərs fənn üzrə müəyyən məzmun standartlarının reallaşdırılmasına xidmət edir. Hər dərsdə müəllim məzmun standartlarının tələblərinə uyğun olaraq təlim prosesini şagirdlərin bilik və bacarıqlara ***yiyələnməsinə*** yönəltməlidir.

Fənni tədris edən müəllim formativ qiymətləndirmə aparmaq üçün məzmun standartları əsasında qiymətləndirmə meyarları müəyyənləşdirməli və hər bir meyarın səviyyələrini (rubrikləri) hazırlamalıdır. Təlim fəaliyyətlərində şagirdlər potensial imkanları daxilində həmin bacarıqlara yiyələnmənin müxtəlif səviyyələrini nümayiş etdirə bilərlər. Standartlara (məqsədlərə) uyğun təşkil olunan qiymətləndirmə əldə olunan bacarığın həddində aparılmalıdır.

Taksonomiyanın aşağı mərhələsi üzrə nəzərdə tutulan bacarığın qiymətləndirilməsi üçün tərtib edilən meyar və tapşırıqlar taksonomiyanın bir və ya iki mərtəbə yuxarı mərhələsinin bacarıqlarını əhatə edərsə, bu, qiymətləndirmənin qeyri-obyektivliyi, şagirdin bilik və bacarığının real dəyərləndirilməməsi deməkdir. Bu baxımdan taksonomiyalar standartların həm tərtibində, həm tətbiqində, həm də qiymətləndirilməsində mühüm rol oynayır.

**Formativ qiymətləndirmə vasitələri.** Formativ qiymətləndirmə növbəti addımların müəyyənləşdirilməsində müəllimlərə yol göstərir. Həyat bilgisi dərslərində formativ qiymətləndirmədə istifadə etmək üçün aşağıdakı üsul və vasitələr əlverişli hesab olunur.

| ***Üsullar*** | ***Vasitələr*** |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Mətn |

| | |
|---|---|
| Yazı | Yazı işləri (esse) |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |
| Qapalı və açıq testlər | Test tapşırıqları |

Müəllim digər vasitələrə də müraciət edə bilər. Qeyd etmək lazımdır ki, istifadə olunan qiymətləndirmə vasitələri formalarına görə müxtəlif ola bilər. Məsələn, müşahidə üsulu üçün istifadə olunan bir neçə vasitənin nümunəsi:

***Qeyri-sistematik qeydlər***: Bunlar dərs zamanı şagirdlərin çalışdığı müddətdə və ya dərs bitdikdən sonra yazılan qısa qeydlərdir. Müəllim təlimin spesifik aspektlərinə fikir verir (məs., "əsas insan hüquqlarını sadalayır") və şagirdin təlim nəticəsi istiqamətində irəliləyişi barədə qeydlər edir. Müəllim bu qeydləri elə şəkildə yazır ki, sonradan təlimi şagirdlərin ehtiyaclarına uyğunlaşdırmaq üçün onlardan istifadə edə bilsin.

***Müzakirə.*** Müəllim şagirdlərə açıq sonluqlu sual verməklə müzakirə apara bilər. Burada əsas məqsəd tənqidi və yaradıcı düşüncə bacarıqlarını inkişaf etdirmək və eyni zamanda şagirdlərin cavablarını izləməklə onların qavrama səviyyəsini, düşüncə tərzlərini müəyyən etməkdir. Müzakirələr zamanı müəllim şagirdləri daha yaxşı müşahidə etmək imkanı qazanır.

***Çıxış/Giriş vərəqi.*** Çıxış vərəqələri şagirdin dərsin məzmununu nə dərəcədə başa düşməsini qiymətləndirmək üçün dərsin sonunda müəllimin verdiyi suallara yazılı cavablardır. Bunları cavablandırmaq 5 dəqiqədən çox vaxt aparmamalıdır və şagirdlər sinfi tərk etdikcə doldurulmalıdır. Bununla müəllim hansı şagirdlərin mövzunu başa düşdüyünü, hansı şagirdlərə əlavə yardım tələb olunduğunu, hansı şagirdlərin isə konsepsiya üzərində daha çox işləməli olduğunu çevik şəkildə müəyyən edə bilər. Çıxış vərəqlərindəki cavabları qiymətləndirməklə müəllim şagirdlərin növbəti dərslər üçün olan ehtiyaclarını qarşılamaq məqsədilə göstərişləri/təlimatları uyğunlaşdıra bilər.

Giriş vərəqələri də çıxış vərəqləri kimidir, lakin onlar dərsdən öncə və ya dərsin əvvəlində doldurulur. Şagirdlərə əvvəlki günün ev tapşırığını necə başa düşdüyünü izah etmək və ya cavablar üçün daha çox vaxt tələb olunarsa, əvvəlki günün dərsləri barədə rəy bildirmək tapşırılır.

***Şagirdin qeyd dəftəri.*** Qeyd dəftərində şagirdlər öyrəndikləri barədə rəylər yazırlar. Jurnalda şagirdlər yeni bir şeyi öyrənən zaman keçdikləri prosesi və aydınlaşdırmalı olduqları

sualları qeyd edirlər. Düşündükləri barədə yazmaq şagirdlərə daha dərindən fikirləşmək və daha yaxşı yazı qabiliyyəti formalaşdırmaq imkanı verir.

Müəllim formativ qiymətləndirmə üçün qeyd dəftərindən istifadə edə bilər. Şagirdlər öyrəndikləri mövzu barədə qeydlər aparır, müəllimlər isə təlim nəticələrinə aparan yolda şagirdlərin fəaliyyətlərini jurnalda qeyd etməklə təlim prosesini şagirdlərin ehtiyaclarına uyğunlaşdırırlar. Şagirdlərin qeyd dəftərini oxumaqla və şagirdin nəyi yaxşı etməsi və nəyi təkmilləşdirməsi barədə təsviri rəylər bildirməklə müəllim bu qeyd dəftərlərini əlverişli təlim vasitəsinə çevirə bilər.

***Şifahi sual-cavab.*** Şifahi sual-cavab üsulundan istifadə edən müəllim qiymətləndirmə vasitəsi kimi şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqindən istifadə edir və bu qeydiyyat vərəqi Həyat bilgisi fənninin xüsusiyyətlərinə uyğun tərtib edilir.

***Layihə (Tədqiqat).*** Tədqiqat üsulunun mahiyyəti ondan ibarətdir ki, şagirdlərə fərdi və ya qrup halında tədqiqat xarakterli sual verilir və onlar bu sual ətrafında apardıqları araşdırmanı layihə şəklində təqdim edirlər. Həmin suallar əsasında hazırlanan layihə şagirdin tələb olunan bacarıqlarının inkişafını izləməyə imkan verir.

***Sorğu və ya müsahibə.*** Sorğu və ya müsahibə şagirdə müstəqil ev tapşırığı kimi verilir. Bu zaman müsahibənin kiminlə aparılacağını və hansı suallara cavab axtarılacağını sinifdə müəllim şagirdlərlə birgə müəyyən edir. Şagird həmin suallar ətrafında topladığı məlumatı təhlil edərək sinif qarşısında təqdimat edir. Birinci sinif şagirdi üçün bu tipli tapşırıqlar şifahi formada ola bilər. Müəyyən bir sual ətrafında valideyn, digər fənn müəllimi və ya yuxarı sinif şagirdi ilə aparılacaq müsahibənin bütün detalları müəllimlər tərəfindən şagirdin yaş səviyyəsinə və məzmun standartlarına uyğunluğu diqqətlə araşdırılır, vaxt təyin edilir və məlumatların sistemləşdirilməsi üçün istiqamətlər müəyyənləşdirilir. Burada əsas şərt veriləcək sualın düzgün tərtib edilməsi və dəqiq ünvanlanmasıdır.

**Özünüqiymətləndirmə.** Özünüqiymətləndirmə üsulundan istifadə geniş yayılmışdır. Özünüqiymətləndirmə vərəqində göstərilən meyarlar üzrə şagird özü haqqında qeydlər edir və bunu “+”, “-” ilə işarə edir.

Müəllim özünüqiymətləndirmə vərəqlərini də şagird portfoliosuna daxil edir.

**Qiymətləndirmə vərəqi nümunəsi:**

1. Dərsdə mənə aydın olmadı:

_______________________________________________________________________

_______________________________________________________________________

2. Dərsdə mənim üçün yeni oldu:

______________________________________________________________________

______________________________________________________________________

**Rubrik**. Rubrik – meyar əsasında şagirdin nailiyyət səviyyəsinin qiymətləndirmə şkalasıdır. Rubriklər 2 cür olur: holistik (fəaliyyətlə bağlı ümumi təəssürat yaradır, şagirdin nailiyyətləri üzrə ümumi mənzərəni təsvir edir) və analitik (şagirdin fəaliyyətinə verilən tələblərdən irəli gələn meyarları bir neçə aspektə ayıraraq nailiyyət səviyyələrini müəyyən edir).

Rubrik hazırlayarkən iki əsas suala cavab verməlisiniz:

1. Mən nəyi qiymətləndirməliyəm?
2. Bu meyar üzrə hansı nailiyyət səviyyələri ola bilər?

**Formativ qiymətləndirmənin rubriklər vasitəsilə aparılmasına aid nümunələr:**

VIII sinif. 1.2.1. Ekoloji tarazlığın qorunması və bərpasına dair layihələr hazırlayır.

**Meyar:** Layihə hazırlama

| ***I səviyyə*** | ***II səviyyə*** | ***III səviyyə*** | ***IV səviyyə*** |
|---|---|---|---|
| Layihənin məzmunu mövzunu əhatə etmir. | Layihənin məzmu-nu mövzunu qismən əhatə edir. | Layihənin məzmu-nu mövzunu əhatə edir, lakin nümu-nələrə istinad olunmur. | Layihənin məzmunu mövzunu əhatə edir, faktlar və nümunələrlə əsaslandırılır. |

VII sinif. 1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.

**Meyar:** Qiymətləndirmə

| ***I səviyyə*** | ***II səviyyə*** | ***III səviyyə*** | ***IV səviyyə*** |
|---|---|---|---|
| Muxtəlif sahələrdə insan fəaliyyətinin təbiətə təsirini sadalayır. | İnsan fəaliyyətinin təbiətə təsirinin əhəmiyyətli və ziyanlı cəhət-lərini şərh edir. | İnsan fəaliyyətinin təbiətə təsirinin müsbət və mənfi cəhətlərini təhlil edərək, qiymət-ləndirir. | İnsan fəaliyyətinin təbiətə təsirini təhlil edir, fakt və nümunə-lərə əsaslanaraq qiymətləndirir. |
| | | | |

**Meyar:** Layihə hazırlama

**Aspektlər:** Planlaşdırma, məlumat toplama, məlumatdan istifadə

**Holistik rubrik**

| Meyar | IV səviyyə | III səviyyə | II səviyyə | I səviyyə |
|---|---|---|---|---|
| *Tədqiqatın planlaşdırılması* | Plan hərtərəflidir. | Planda catışmazlıqlar var. | Planda əksər hissələr çatışmır. | Plan tamamlanmamış və məhduddur. |
| *Məlumatın toplanması* | Məlumat dəqiq toplanıb. | Məlumatın bir hissəsi top-lanıb. | Məlumat kifayət qədər toplanmayıb. | Çox az məlumat toplanıb. |
| *Materialdan istifadə* | Bütün materiallardan məqsədyönlü istifadə edir. | Materiallardan çox vaxt müva-fiq istifadə edir. | Bəzi mate-riallardan düzgün istifadə etməyib. | Materiallardan müvafiq istifadə etmir. |

**VIII sinif. "Təbiətdəki qanunauyğunluqlar"**

**Tədris vahidi üzrə kiçik summativ qiymətləndirmə nümunəsi:**

**Reallaşdırılmış standartlar:**

1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.

1.1.1. Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır.

1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.

1.2.1. Ekoloji tarazlığın qorunmasına və bərpasına dair layihələr hazırlayır.

**1. Kristal və amorf maddələri bir-birindən fərqləndirən hansı xassələr var?**

A) Formaya malik olması

B) Həcmini saxlaması

C) Atomların düzülüşü

D) Ərimə temperaturunun olması

**2. Ayın Yer, Yerin Günəş ətrafında hərəkətinin səbəbi nədir?**

A) Günəş Yeri cəzb edir, Ayı itələyir

B) Yer Ayı və Günəşi cəzb edir

C) Günəş Yeri və Ayı cəzb edir

D) Səbəb göy cisimləri arasındakı cazibədir

**3. Uyğunluğu müəyyən et.**

1. Bərk maddə

2. Maye

3. Qaz

a. formasını saxlamır, həcmini saxlayır.

b. formasını və həcmini saxlamır.

c. formasını və həcmini saxlayır.

A) 1a, 2b, 3c B) 1b, 2a ,3c C) 1c, 2a, 3b D) 1a ,2c, 3b

**4. Günəş və Ay tutulmaları işığın hansı xassəsinin nəticəsidir?**

A) İşığın yayılması

B) İşığın kölgə əmələ gətirməsi

C) İşığın düz xətt boyunca yayılması

D) İşığın hərəkətdə olması

**5. Günəş tutulması**

______________________________________________________________________

**6. Ay tutulması**

______________________________________________________________________

**7. Düzgün olanları seçin:**

1. Yanğınlar torpaq qatına təsir göstərmir.

2. Beynəlxalq ekoloji problemlər yalnız çoxtərəfli sazişlər əsasında tənzimlənir.

3. Bir neçə ölkənin maraq dairəsini əhatə edən problemlərin həlli üçün ölkələrarası müqavilə qəbul olunur.

4. Ekoloji problemlər siyahısına təbii sərvətlərdən düzgün istifadə olunmaması da aiddir.

A) 1,3 B) 2,3 C) 1,4 D) 3,4

**8. Ekoloji təmizliyi müəyyən edən meyarlar hansılar ola bilər?**

A) İçməli suyun keyfiyyəti, adamların mədəni səviyyəsi

B) Avtomobillərin hərəkət intensivliyi, kanalizasiya şəbəkələrinin və çirkab suların təmizlənmə səviyyəsi

C) İçməli suyun keyfiyyəti, zibilin vaxtında təmizlənməsi

D) Binaların hündürlüyü, meşələrin çoxaldılması

**9. "Dünyanın yeganə xilas yolu birlikdir" fikrinə münasibətin**:

**10. Ekoloji problemlərin qarşısının alınması üçün hansı tədbirlərin görülməsini düşünərdin?**

**Elmi tədqiqat**. Elmi tədqiqatın 2 səviyyəsi vardır: empirik və nəzəri. Empirik səviyyə hissiyyat orqanlarının vasitəsilə dərk edilən real obyektlərin birbaşa tədqiqi ilə bağlıdır. Tədqiq olunan obyektlər barədə ölçmə, təcrübə (eksperiment) vasitəsilə məlumat toplanması və məlumatın ilkin sistemləşdirilməsi bu səviyyədə baş verir. Elmi tədqiqatın nəzəri səviyyəsi isə

məntiqi müstəvidə baş verir və burada öyrənilən obyektə məxsus daha dərin əlaqələrin, qanunauyğunluqların müəyyənləşdirilməsi aparılır. Nəzəri səviyyənin nəticəsi hipotezalar, nəzəriyyələr, qanunlar olur. Empirik və nəzəri səviyyələr bir-biri ilə bağlıdır və empirik səviyyə nəzəri səviyyənin təməlini təşkil edir. Hərdən deyirlər ki, empirik bilik elmə qədərki bilikdir – reallığı əks etdirən elementar fakt və hadisələrin sadə toplusudur. Empirik materialları toplamadan onları sistemləşdirmək, təhlil etmək və ümumiləşdirmək mümkün deyil. Empirik və ya hissiyyata, müşahidəyə əsaslanan metod ətraf aləmin təcrübə yolu ilə dərk edilməsidir. Empirik tədqiqat metodu müxtəlif cisim və hadisələrin inkişafına aid obyektiv qanunların üzə çıxmasına kömək edir. Bu, kompleks şəkildə mürəkkəb addımlarla aparılan bir prosesdir ki, sonunda elmi kəşflər edilir.

**Empirik tədqiqat metodunun əhəmiyyəti.** Bu metodun əsas əhəmiyyəti ondadır ki, o, ətraf aləmi dərk etmək üçün ən etibarlı alət sayılan insanın duyğu orqanlarının fəaliyyətinə əsaslanır. Bu metodla əldə edilən məlumatlar nəzəri yolla əldə edilən məlumatlardan daha etibarlı sayılır. Həyat bilgisi dərslərində şagirdlərə empirik tədqiqatlar aparmaq üçün şərait yaratmaq vacibdir.

**Empirik tədqiqat metodunun növləri**

- Müşahidə;
- Müqayisə;
- Ölçmə;
- Eksperiment (təcrübə).

***Müşahidə*** – fəaliyyət obyektinin məqsədyönlü dərk edilməsidir. Obyektivlik elmi müşahidənin əsas şərtlərindən olub, ya yenidən müşahidə etməklə, ya da digər empirik tədqiqat növündən (eksperiment) istifadə etməklə nəticəni yoxlamaq imkanı verir.

***Müqayisə*** – cisim və hadisələrin oxşar və fərqliliyinin müəyyən edilməsidir. Müqayisənin səmərəli keçirilməsi üçün iki əsas şərtə riayət etmək lazımdır.

1) Müqayisə elə obyektlərlə aparılmalıdır ki, onların obyektiv ümumi cəhətləri mövcuddur.

2) Müqayisə obyektlərin əsas xüsusiyyətlərinə görə aparılmalıdır. Əks halda yanlış nəticə alınar.

***Ölçmə*** müqayisədən fərqli olaraq daha güclü və universal dərketmə vasitəsidir. Ölçmə qəbul olunmuş ölçmə vahidlərinə əsaslanaraq ölçülən kəmiyyətin qiymətini müəyyənləşdirmək məqsədilə ölçü vasitələrindən istifadə edərək aparılan fəaliyyətlərin toplusudur.

Ölçmə prosesində iştirak edən əsas elementlər:

- ölçmə obyekti;
- ölçü vahidi, etalon obyekt;
- ölçmə aləti və ya cihazı;
- ölçmə üsulu;
- tədqiqatçı.

Ölçmələr iki cür aparılır – birbaşa və dolayısı ilə.

- **Birbaşa ölçmə** zamanı nəticə ölçmə prosesindən alınır.
- **Dolayısı ilə ölçmə** zamanı axtarılan kəmiyyət birbaşa ölçmədən alınan kəmiyyətlə riyazi əməliyyatlar etməklə hesablanır.

***Eksperiment*** mürəkkəb və səmərəli empirik tədqiqat üsuludur. O, müəyyən obyekt və hadisələrə yeni şəraitdə məqsədyönlü təsir etməklə aparılan tədqiqatdır. Hesab edilir ki, elmi eksperimentin əsasını Qalileo Qaliley (1564-1642) qoymuşdur. O, dərketmənin əsasının təcrübə olduğunu söyləmişdir.

Eksperiment aparılmasını zəruri edən şərtlər:

- Obyektə aid indiyə qədər məlum olmayan xüsusiyyətləri aşkar etmək;
- Düzgünlüyünün təsdiqlənməsinə ehtiyac olan nəzəri məlumatları əldə etmək.

Həm ölçmə, həm də eksperiment şagirdlərin maraqla yerinə yetirdikləri tədqiqatlardır. Məsələn, "ekoloji izi" ölçmək üçün şagirdlərə tapşırıq vermək olar ki, həftə ərzində evlərindəki məişət tullantılarının çəkisini ölçüb qeyd etsinlər. Sonra "ekoloji izi" hesablayan onlayn kalkulyator vasitəsilə hər biri planetimizdə qoyduğu neqativ ekoloji izi hesablaya bilər:

http://jalajalg.positium.ee/?lang=RU

Tapşırığın davamı kimi məişət tullantılarının həcmini azaltmaq üçün hansı addımların atılması müzakirə edilə bilər, bir müddət sonra yenidən eyniməzmunlu ölçmələr aparıla bilər.

Yaxud qeyri-standart şəraitdə (məsələn, qış aylarında, şoran torpaqda və s.) kartof yetişdirməyin yollarını öyrənmək məqsədilə eksperiment keçirə bilərlər.

**Layihələr metodu** elə bir öyrənmə sistemidir ki, bu prosesdə şagird tədricən mürəkkəbləşən praktiki tapşırıqları – layihələri müstəqil planlaşdırıb həyata keçirməklə bilik və bacarıqlar əldə edir.

E.S.Polat layihə növlərini ayırmaq üçün altı əsas meyar təklif etmişdir:

**1. Layihədə istifadə olunan üsul və ya fəaliyyətə görə:** tədqiqat, yaradıcı, rollu oyun, məlumat xarakterli, tətbiqi. Qeyd edək ki, hazırda yanlış olaraq məktəblərdə şagirdlərə daha çox məlumat xarakterli layihələr tapşırılır ki, bunlar da uşaqların maraq dairələrinə uyğun olmur və ya eynitipli layihələr onları usandırır.

**2. Mövzuya görə:** monolayihələr; fənlərarası layihələr. Burada da daha çox birinci növdən istifadə edilir. Dünya barədə tam təsəvvürün formalaşması üçün isə fənlərarası layihələrin hazırlanması daha faydalıdır.

**3. Ərazi əlaqəli:** daxili və ya regional, beynəlxalq.

**4. Layihə iştirakçılarının sayına görə:** fərdi, cütlərlə, qrupla.

**5. Layihənin müddətinə görə:** qısamüddətli, ortamüddətli, uzunmüddətli. Belə layihələri planlaşdırarkən onların məxmun tutumunun nə qədər vaxt tələb edəcəyini əvvəlcədən hesablamaq vacibdir. Məsələn, hazır resurslar arasında “Dəyişiklik üçün layihə: Bir ideya – bir həftə” materialından istifadə edə bilərsiniz:

http://www.tipii.edu.az/nodupload/editor/files/D%C9%99yi%C5%9Fiklik%20%C3%BC%C3%A7%C3%BCn%20layih%C9%99_Bir%20ideya_bir%20h%C9%99ft%C9%99(1).pdf

**6. Nəticələrə görə:** hesabat, albom, kolleksiya, kataloq, almanax; plan, sxem, plan-xəritə; video; sərgi və digərləri.

***Tətbiqetmə qaydası:***

1. Hazırlıq: layihənin mövzusu və məqsədləri müəyyən edilir.

2. Planlaşdırma: məlumat mənbələri, məlumatın toplanması və təhlili üsulları müəyyən edilir. Layihənin nəticələrinin təqdimat üsulu, onların (nəticələrinin) və tədqiqat prosesinin qiymətləndirmə meyarları müəyyən edilir. Komanda üzvləri arasında vəzifələrin və tapşırıqların bölgüsü aparılır.

3. Tədqiqat: məlumatın toplanması və cari problemlərin həlli. Alətlər: müsahibə, sorğu, müşahidə.

4. Təhlil və ümumiləşdirmə: əldə edilən məlumatların təhlili, nəticələrin xülasəsi, nəticələrin təqdimat formasına salınması.

5. Təqdimat və hesabat: nəticələrin mümkün olan hesabat formaları: şifahi və yazılı hesabat.

6. Layihənin nəticələrinin və onun icrası prosesinin qiymətləndirilməsi: müəyyən olunmuş qiymətləndirmə meyarlarına müfafiq qiymətləndirmənin aparılması.

**İnsan hüquqları və demokratik vətəndaşlıq**

"İnsan hüquqları" dedikdə, BMT-nin qəbul etdiyi bütün bəyannamələrdə, konvensiyalarda və tövsiyələrdə təsbit olunan hüquqlar nəzərdə tutulur. Hüquqları insanın əsas tələbatları ilə əlaqələndirirlər. İnsanın tələbatları yalnız cismən sağ qalıb yaşama ehtiyacları ilə məhdudlaşdırıla bilməz. Bu tələbatlar insanın həm maddi, həm də mənəvi cəhətdən ləyaqətlə və layiqincə yaşamasını təmin edən tələbatlardır. İnsanın cəmiyyətdə layiqincə yaşamasını təmin edən əsas tələbatlar insan hüquqlarının təməl prinsipidir.

XVIII əsrdə Fransada və Şimali Amerikada formalaşan insan hüquqlarının birinci nəslini "mülki və siyasi hüquqlar", ikinci nəslini "sosial, iqtisadi və mədəni hüquqlar", üçüncü nəslini isə "həmrəylik hüquqları" adlandırırlar.

**Uşaq hüquqları haqqında Konvensiya**

BMT-nin bu sənədi, hansı dövlətdə yaşamasından asılı olmayaraq, uşaqların hüquqlarının məcmusudur.

Konvensiyanın əsas fəlsəfi ideyası belədir: Uşaq – şəxsiyyətdir. Konvensiyanın əsas məqsədi isə uşağı maksimum müdafiə etməkdir. Konvensiyanın mühüm prinsipi ayrı-seçkiliyə yol verməməkdir. Konvensiyada hüquqlar şərti olaraq 4 qrupa ayrılır:

- ✓ Yaşamaq hüququ;
- ✓ İnkişaf hüququ;
- ✓ Müdafiə hüququ;
- ✓ İştiraketmə hüququ.

İnsan hüquqlarını uşaqlara fəaliyyət əsasında öyrətməyin səmərəli üsullarından biri "Kompasito" dərs icmallarından istifadədir.

http://www.tipii.edu.az/az/article/91-quot-kompasito-quot-dars-icmallari

Burada stolüstü oyunlar vasitəsilə də mühüm anlayışları oynayaraq öyrənmək imkanı verən dərs icmalı vardır.

**Demokratiya mədəniyyəti kompetensiyaları**

Sənəd 2016-cı ilin aprel ayında Avropa Mədəniyyət Konvensiyasına üzv ölkələrin təhsil nazirlərinin iclasında qəbul edilmişdir. Məqsəd uşaq və gənclərə demokratik cəmiyyətdə yaşamaq üçün vacib olan kompetensiyaları aşılamaqdan ibarətdir. Sənəddə 4 istiqamət (dəyərlər, yanaşmalar, bacarıqlar, bilik və tənqidi anlama) üzrə 20 kompetensiya təqdim edilir.

*Dəyərlər*

**İnsan ləyaqətinə və insan hüquqlarına dəyər vermək**

Bu dəyər hər bir insanın bərabər dəyər, ləyaqət və hörmətə layiqliyi, eləcə də eyni hüquq və fundamental azadlıqlara malikliyi və bunlara uyğun münasibət görməsinin vacibliyi ideyası əsasında formalaşmışdır.

**Mədəni müxtəlifliyi dəyərləndirmək**

Bu dəyər digər mədəni mənsubiyyət, mədəni müxtəliflik və çeşidliliyin, eləcə də digərlərinin baxış, fikir və təcrübələrinin çoxnövlülüyünə müsbət hal kimi baxmağın, onları dəyərləndirməyin və qorumağın vacibliyi inancına əsaslanır.

**Demokratiya, ədalət, düzgünlük, bərabərlik və qanunun aliliyini dəyərləndirmək**

Bu dəyərlər toplusu cəmiyyətin ədalət, düzgünlük, bərabərlik və hüququn aliliyi prinsiplərinə hörmət edən demokratik proseslərlə nizamlanmalı və idarəedilməli olduğu fikrinə əsaslanmışdır.

*Yanaşmalar*

**Mədəni fərqliliyə, digərlərinin inanclarına, dünyagörüşünə və normalarına açıqlıq**

Açıqlıq – şəxsin özününkündən fərqli mədəni mənsubiyyətə, əqidəyə, dünyagörüşünə və normalara malik insanlara münasibətdə göstərdiyi davranışa deyilir. Bu yanaşma tərzinə digərlərinin dünyagörüşünə münasibətdə həssaslıq, səmimi maraq hissi və öyrənmə istəyi daxildir.

**Hörmət**

Hörmət kiminsə və ya nəyinsə təbii önəmi, dəyəri və ya qiyməti olduğu fikrinə əsaslanaraq, onlara göstərilən müsbət münasibət və ehtiramdan ibarətdir. Özündən fərqli mədəni mənsubiyyətə, düşüncəyə, inanc və normalara malik insanlara hörmət etmək səmərəli mədəniyyətlərarası dialoq və demokratiya mədəniyyəti üçün böyük əhəmiyyətə malikdir.

**Vətəndaş təfəkkürü**

Vətəndaş təfəkkürü fərdin ailəsi və dostlarından daha geniş çevrəyə – mənsub olduğu icmaya və ya sosial qrupa olan münasibətidir. Bu, həmin cəmiyyətə mənsubluq hissi, cəmiyyətin digər üzvlərini nəzərə almaq, öz davranışlarının həmin üzvlərə təsiri haqda düşünmək, həmrəylik və yaşadığı icmaya münasibətdə vətəndaş məsuliyyəti kimi özünü göstərir.

**Məsuliyyət**

Məsuliyyət fərdin öz hərəkətlərinə olan münasibətidir. Bu münasibətə fərdin öz hərəkətləri üzərində refleksiya aparması (düşünməsi), mənəvi cəhətdən qəbul olunan formada davranmaq niyyətini formalaşdırması, şüurlu davranması və hərəkətlərinin nəticələrinə görə məsuliyyət daşıması daxildir.

**Şəxsi səmərəlilik**

Şəxsi səmərəlilik şəxsin özünə olan münasibətidir. Bu, şəxsin müəyyən məqsədlərə çatması üçün lazımi addımları ata biləcəyinə, ortaya çıxan məsələlərdən baş çıxaracağına əminliyi, eləcə də tapşırıqların öhdəsindən gəlmək üçün uyğun metodları seçəcəyinə, maneələri uğurla keçəcəyinə və dünyada fərq yaradacağına dair inamıdır.

**Qeyri-müəyyənliyə dözümlülük**

Qeyri-müəyyənliyə dözümlülük çoxsaylı ziddiyyətli interpretasiyalara zəmin olan qeyri-müəyyən situasiyalara münasibətdir. Bu bacarıq belə situasiyaları müsbət qiymətləndirmək və onların öhdəsindən konstruktiv şəkildə gəlməkdən ibarətdir.

***Bacarıqlar***

**Müstəqil öyrənmə bacarıqları**

Müstəqil öyrənmə bacarıqları şəxsin öz ehtiyaclarına uyğun, fərdi şəkildə, digərləri tərəfindən təhrik edilmədən öz öyrənmə prosesini müəyyənləşdirmək, təşkil etmək və qiymətləndirmək bacarıqlarıdır.

**Analitik və tənqidi düşünmə bacarıqları**

Analitik və tənqidi düşünmə bacarıqları təhlil etmək, qiymətləndirmək və hər növ material (mətnlər, arqumentlər, şərhlər, problemlər, hadisələr, təcrübələr) barədə sistematik və məntiqi tərzdə mühakimə yürütmək bacarığıdır.

**Dinləmə və müşahidə etmək bacarıqları**

Dinləmə və müşahidə bacarıqları deyiləni və deyilənin hansı formada deyildiyini, eləcə də digər insanların qeyri-verbal davranışlarını anlamaq və sezmək bacarıqlarıdır.

**Empatiya bacarığı**

Empatiya bacarığı digər insanların fikir, inanc və hisslərini anlamaq, onlarla əlaqə yarada bilmək və dünyanı digərlərinin nöqteyi-nəzərindən görə bilmək üçün lazım olan bacarıqlar toplusudur.

**Çeviklik və uyğunlaşma bacarığı**

Çeviklik və uyğunlaşma bacarıqları yeni kontekst və situasiyalara səmərəli cavab verə bilmək üçün fərdin fikir, hiss və davranışlarını uyğunlaşdırmaq və tənzimləmək bacarıqlarıdır.

**Linqvistik, kommunikativ və plurilinqual (çoxdillilik) bacarıqlar**

Linqvistik, kommunikativ və plurilinqual (çoxdillilik) bacarıqlar özü ilə eyni və ya fərqli dildə danışan insanlarla səmərəli və müvafiq ünsiyyətə girmək, müxtəlif dil daşıyıcıları arasında vasitəçi ola bilmək üçün zəruri bacarıqlardır.

**Əməkdaşlıq bacarıqları**

Əməkdaşlıq bacarıqları digərləri ilə ümumi fəaliyyətlərdə, tapşırıqlarda və riskli məsələlərdə uğurla iştirak etmək və qrup məqsədlərinə nail olmaq üçün digərlərini həvəsləndirə bilmək üçün lazım olan bacarıqlardır.

**Münaqişələri həll etmə bacarıqları**

Münaqişələri həll etmə bacarıqları yaranan münaqişəni hər iki tərəfin qəbul edəcəyi optimal həll yoluna gətirmək üçün münaqişələrə yanaşmaq, onları idarə etmək və sülh yolu ilə,həll etmək üçün lazımi bacarıqlardır.

***Bilik və tənqidi anlama***

**Tənqidi özünü anlama**

Buraya insanın öz fikirləri, inancı, hissləri və motivasiyası, həmçinin öz mədəni mənsubiyyətini, dünyaya baxışını dərindən tanıması və özü barədə bilikləri daxildir.

**Dil və ünsiyyət haqqında biliklər və tənqidi anlama**

Bu bacarıqlar fərdin danışdığı dildə cəmiyyətdə qəbul edilmiş verbal və qeyri-verbal dil normaları, eləcə də ünsiyyətin müxtəlif tərzlərinin insanlara təsiri və hər bir dilin mədəni cəhətdən eyni mənaları unikal formada necə çatdırması ilə bağlı bilik və tənqidi anlamanı özündə ehtiva edir.

**Dünya barədə biliklər və dünyanı tənqidi anlama**

Bu bacarıq siyasət, hüquq, insan hüquqları, mədəniyyət, din, tarix, media, iqtisadiyyat, ətraf mühit və dayanıqlılıq kimi müxtəlif sahələr haqqında geniş və mürəkkəb biliklər toplusunu, eləcə də tənqidi anlamanı ehtiva edir.



## Dayanıqlı inkişaf məqsədləri

2015-ci ildə BMT dayanıqlı inkişafın qlobal məqsədlərinin reallaşdırılmasına başladı. Qarşıya yoxsulluq, haqsızlıq və bərabərsizliklə yanaşı, 2030-cu ilə bütün insanlar naminə iqlimin dəyişməsinə qarşı mübarizə aparmaq məqsədi də qoyuldu. Bu məqsədlərin həyata keçirilməsi nəticəsində hər bir insanın sağlamlığı, təhlükəsizliyi və planetimizin gələcəyi sığortalanmış olacaq. Məqsədlərə çatmaq üçün planetin hər bir insanı bunlar haqqında məlumatlandırılmalıdır. Həmin məqsədlər aşağıdakılardan ibarətdir:

1. Yoxsulluğa son.
2. Aclığa son.
3. Sağlamlıq və rifah.
4. Keyfiyyətli təhsil.
5. Gender bərabərliyi.
6. Təmiz su və sanitariya.
7. Ucuz və təmiz enerji.
8. Layiqli iş və iqtisadi artım.
9. Sənayeləşdirmə, innovasiya və infrastruktur.
10. Qeyri-bərabərliyin azaldılması.
11. Davamlı inkişaf edən şəhərlər.
12. Düşünülmüş istehlak və istehsal.
13. İqlim dəyişkənliyi ilə mübarizə.
14. Su altında həyat.
15. Yer üzündə həyat.
16. Sülh, ədalət və güclü institutlar.
17. Davamlı inkişaf naminə tərəfdaşlıq.

BMT-nin Dayanıqlı inkişaf məqsədləri barədə hər bir şagirdi məlumatlandırmaq və bu məqsədlərə çatmaq yolunda konkret addımlar atmağa həvəsləndirmək Həyat bilgisi dərslərinin tərkib hissəsi olmalıdır. Məlumatlandırma və fəaliyyət işini düzgün qurmaq işində aşağıdakı keçiddə verilmiş məlumat və dərs icmalları faydalı olar:

http://www.tipii.edu.az/az/announce/25-yunesko-nun-quot-qlobal-maqsadlar-quot-darslari